Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Noyabr 2023

www.ereforms.gov.az
info@ereforms.gov.az

## AZƏRBAYCAN YAXIN GƏLƏCƏKDƏ YAŞIL VƏ HİDROGEN ENERJİSİNİN İXRACATÇISINA ÇEVRİLƏCƏK.



Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olub. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır.

**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 09 noyabr 2023-cü il tarixində Daşkənddə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısındakı nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 21

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

## 2023-cü ilin yanvar-oktyabr ayları ərzində 29,3 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2,7 milyard ABŞ dolları təşkil etmişdir

2023-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanın ümumi ixracı **29,3 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,1% artaraq **2,7 milyard** ABŞ dolları təşkil edib. 2023-cü ilin yanvar-oktyabr ayları ərzində yeyinti məhsulları üzrə ixrac **706,9 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin 10 ayı ərzində spirtli və spirtsiz içkilərin, elektrik enerjisinin ixracı 2,9 dəfə, plastmassa və ondan hazırlanan məmulatların ixracı 24,6%, qara metallardan məmulatların ixracı 19,8%, meyvə-tərəvəz ixracı isə 11,5% artıb.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **9,2 %** artaraq **733,8 milyon** ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə **12,9%** artaraq **162,7 milyon** ABŞ dolları təşkil edib.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (**348,1 milyon ABŞ** dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (**126,1 milyon ABŞ** dolları) ikinci, qızıl (**118,7 milyon ABŞ** dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində Rusiya Federasiyasına **881,4 milyon ABŞ** dolları, Türkiyəyə **675,9 milyon ABŞ** dolları, Gürcüstana **266,3 milyon ABŞ** dolları, İsveçrə Konfederasiyasına **129,8 milyon ABŞ** dolları, Qazaxıstana isə **84,2 milyon ABŞ** dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin oktyabr ayının qeyri-neft ixracı **15,4%** artaraq **278,2 milyon ABŞ** dolları olub. Yeyinti məhsulları üzrə ixrac 24,1% artımla **90,6 milyon ABŞ** dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **11,6%** artımla **187,7 milyon ABŞ** dolları təşkil edib.

2023-cü ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**94,1 milyon ABŞ** dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**44,1 milyon ABŞ** dolları) ikinci və Gürcüstan (**26 milyon ABŞ** dolları) üçüncü olub.

2023-cü ilin oktyabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (**29,5 milyon ABŞ** dolları) birinci, elektrik enerjisi (**17,7 milyon ABŞ** dolları) ikinci və qızıl (**16,9 milyon ABŞ** dolları) üçüncü olub.



# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






# 2023-CÜ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






# 2023-CÜ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr



# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**733,8 mln $**

2022/2023 **+9,2%**



**571,1 mln $** (Aqrar məhsullar) — 2022/2023 **+8,1%**

**162,7 mln $** (Aqrar-sənaye məhsulları) — 2022/2023 **+12,9%**

# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr



# 2023-CÜ İLİN OKTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr



# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr

2023 2022

Elektrik enerjisi
348,1
64,9

Tomat (pomidor)
126,1
137,1

Qızıl
118,7
143

Pambıq mahlıcı
98,2
151,9

5 PP
İlkin formalı polipropilen
94,7
81,3

Meşə fındığı
94,3
80,3

PE
İlkin formalı propilen sopolimerləri
79,8
39,8

PE
Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen
79,8
43,4

Polimerləşmədə ilkin formalı maddələr
75,2
66,2

# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2023 | 2022 |
|---|---|---|
| Metanol (metil spirti) | 73,1 | 112,9 |
| Karbamid | 63,6 | 181,8 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 56,2 | 76,9 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 sm$^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 55,6 | 6,9 |
| Şaftalı | 51,5 | 32,8 |
| Digər yağlar və məhsullar | 51,2 | 60,6 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 46,7 | 34,4 |
| Xurma | 46,2 | 44,4 |
| Albalı və gilas | 44,6 | 41,6 |

# 2023-CÜ İLİN OKTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr

| | 2023 | 2022 |
|---|---|---|
| Xurma | 29,5 | 13,8 |
| Elektrik enerjisi | 17,7 | 28,5 |
| Qızıl | 16,9 | 14,6 |
| Meşə fındığı | 15,7 | 9,6 |
| Karbamid | 13,1 | 18,3 |
| Polimerləşmədə ilkin formalı maddələr | 11,8 | 0,7 |
| Nar | 10 | 7,8 |
| Pambıq mahlıcı | 9,7 | 4,8 |
| İlkin formalı propilen sopolimerləri | 9,2 | 7,8 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2023-cü ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: Şirinov Elvin Valeh oğlu, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "My Fruit" MMC, "P-Aqro" MMC, "Mors Trading" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023
İXRAC İCMALI
noyabr



# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzərGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **16,1 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın **46 ölkəsinə 16,1 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos” xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2023-cü ilin oktyabr ayında isə “Azərkosmos” dünyanın **42 ölkəsinə 1,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-oktyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **4,7 milyon ABŞ** dolları ilə Birləşmiş Krallıq, **3,4 milyon ABŞ** dolları ilə Lüksemburq, **1,4 milyon ABŞ** dolları ilə BƏƏ, **872,9 min ABŞ** dolları ilə Almaniya və **622 min ABŞ** dolları ilə Nigeriya qərarlaşıb.

# 2023-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 16,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2023 İXRAC İCMALI noyabr



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 4,7 mln $ | Birləşmiş Krallıq |
| 3,4 mln $ | Lüksemburq |
| 1,4 mln $ | BƏƏ |
| 872,9 min $ | Almaniya |
| 622 min $ | Nigeriya |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-oktyabr ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 1,8 milyard manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2023-cü ilin yanvar-oktyabr aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **1,8 milyard manat**, yalnız oktyabr ayında isə **203,6 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2023 İXRAC İCMALI noyabr

| | 2021* | 2022 | 2023 |
|---|---|---|---|
| Yanvar | 72,2 | 204,7 | 171,5 |
| Fevral | 112,2 | 186,5 | 162,3 |
| Mart | 93,2 | 158,6 | 218,1 |
| Aprel | 64,1 | 136,6 | 126 |
| May | 81,3 | 184,1 | 173,4 |
| İyun | 89,7 | 203,6 | 148,6 |
| İyul | 96 | 214 | 218,8 |
| Avqust | 105,3 | 214,6 | 200,9 |
| Sentyabr | 124,4 | 155,5 | 186,2 |
| Oktyabr | 124,4 | 149 | 203,6 |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **962,7 mln** | **1,8 mlrd** | **1,8 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2023-cü ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 42 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2023-cü ilin noyabr ayı ərzində **182 müraciət** daxil olub. Müvafiq dövr ərzində **482 ədəd** sertifikat (258 ədəd mənşə, 206 ədəd fitosanitar, 4 ədəd baytarlıq, 14 ədəd CİTES) təqdim edilib.

2023-cü ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **42 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, yağ, pendir, qənnadı məmulatları, nar, alma, üzüm, qarışıq şirələr, limonad, pomidor, xiyar, xurma, dondurma, Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların əti, kürüsü, tibbi zəli, təmizlənmiş duzlanmış qoyun bağırsağı, əridilmiş heyvan piyi, su nasosu və mexaniki sıxlaşdırıcılar, sürtkü yağları, avadanlıq, köpüklənən polistrol əsaslı ekstruz olunmuş lövhələr, klinker, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, pomidor, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsünün ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Almaniya, İtaliya, Belarus, Türkiyə, ABŞ, Polşa, Ukrayna, Moldova, Türkmənistan, Qırğızıstan, Sinqapur, Özbəkistan, Qazaxıstan, Əfqanıstan, Suriya üstünlük təşkil etmişdir.



# 2023-CÜ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
(milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI noyabr



# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)



**53,4%**
Mənşə sertifikatı

**42,8%**
Fitosanitar sertifikatı

**3%**
CİTES sertifikatı

**0,8%**
Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat